No: 01 2025
http://doi.org/10.64400/ndueej.024
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# GÖRKƏMLİ AZƏRBAYCAN MEMARI ƏCƏMİ ƏBUBƏKR OĞLU NAXÇIVANİNİN HƏYATI VƏ YARADICILIĞI HAQQINDA

**Hacıfəxrəddin Səfərli**
https://orcid.org/0009-0007-1665-8906
*seferli949@mail.ru*
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
**Yazışılan müəllif: seferli949@mail.ru; Tel.:( +994)603036875*

## XÜLASƏ

Məqalədə görkəmli Azərbaycan memarı Əcəmi Əbubəkr oğlu Naxçıvaninin həyatı, yaradıcılığı, doğum və ölüm tarixləri haqqında bəhs olunur. Qeyd edilir ki, Orta əsr mənbələrində Əcəmi Naxçıvaninin həyatı, yaradıcılığı, doğum və ölüm tarixləri haqqında indiyədək heç bir məlumat gəlib çatmamışdır. Ona görə də, memarın yaradıcılığının məhsulu olan Yusif Küseyir oğlu və Mömünə xatın türbələrinin inşa tarixləri əsasında təhlillər aparılır və onun doğum və ölüm tarixləri təxmini də olsa müəyyən edilir. Belə bir nəticəyə gəlinir ki, Əcəmi Əbubəkr oğlu Naxçıvani XII yüzilliyin 20-ci illərində anadan olmuş, həmin yüzilliyin sonlarında vəfat etmişdir.

***Açar sözlər:*** Azərbaycan, Naxçıvan, Əcəmi Naxçıvani, memar, Möminə xatın, türbə, abidə.

## GİRİŞ

Məlumdur ki, UNESCO-nun Baş Konfransının 7-22 noyabr 2023-cü ildə keçirilən 42-ci sessiyasında görkəmli Azərbaycan memarı Əcəmi Naxçıvaninin 900 illik yubileyi 2024-2025-ci illər ərzində UNESCO çərçivəsində qeyd olunacaq yubileylər siyahısına daxil edilmişdir. Əcəmi Əbubəkr oğlu Naxçıvani Orta əsr Azərbaycan memarlığının ən görkəmli nümayəndələrindən, Azərbaycan memarlığının çox möhtəşəm qollarından biri olan Naxçıvan memarlıq məktəbinin banisidir. Zəmanəmizə qədər gəlib çatmış Orta əsr yazılı qaynaqlarında bu görkəmli memar haqqında demək olar ki, əsaslı bir məlumat gəlib çatmamışdır. Ona görə də, onun haqqında məlumatı biz ancaq dahi memarın yaratdığı möhtəşəm abidələr və onların üzərindəki kitabələrdən alırıq.

Tarixin ən mötəbər qaynaqlarından sayılan epiqrafik abidələr orta əsrlər zamanı Naxçıvan bölgəsində yaşayıb yaratmış bir sıra görkəmli şəxsiyyətlərin adlarını zəmanəmizədək gətirib çıxarmışdır. Bu şəxsiyyətlər içərisində sənətkarların, o cümlədən memarların özünəməxsus yeri vardır. Bu memarların adları əsasən özlərinin yaratdığı möhtəşəm abidələr üzərindəki kitabələr vasitəsilə bizə qədər gəlib çatmışdır. Belə memarlardan biri də XII yüzillikdə yaşayıb yaratmış Əcəmi Əbubəkr oğlu Naxçıvanidir.

Məlumdur ki, bir sıra yerlərdə çoxlu memarlıq abidələri inşa etsə də, Əcəmi Naxçıvaninin yaratdığı abidələrdən indiyədək ancaq, Naxçıvan şəhərində iki abidə – Yusif Kuseyr oğlu türbəsi və Möminə xatın türbəsi gəlib çatmışdır. Ancaq, tarixi və memarlıq ədəbiyyatı materiallarından aydın olur ki, Naxçıvan şəhərində XIX yüzilliyə qədər qalıqları qalan başqa abidələr də, o cümlədən Atabəylər memarlıq kompleksinə daxil olan, ancaq, indiyədək gəlib çatmayan Qoşa minarəli baştağ və Came məscidi də bu görkəmli memarın yaradıcılığının məhsulu olmuşdur. XII əsrdə Naxçıvan şəhərində yaratdığı Atabəylər memarlıq kompleksinə daxil olan Eldənizlər sarayı (Dar ül-Mülk), Xanəgah və s. kimi inzibati və mülki binalar da XII əsrdə Əcəmi Naxçıvani tərəfindən inşa edilmişdir. Hətta elmdə 1979- cu ildə Ordubad rayonundakı Orta əsr Xaraba Gilan yaşayış yerində təsadüfən aşkar olunan türbənin də Əcəmi Naxçıvani tərəfindən XII yüzilliyin 80-ci illərində inşa edilməsi fikri vardır (9, s.90-91). Naxçıvan şəhərinin cənub tərəfində, Möminə xatın türbəsindən təxminən 400-500 metr aşağıda yerləşən Nuh peyğəmbərin qəbirüstü türbəsinin ətrafından aşkar olunan kitabə fraqmentlərinin, abidələrin inşasında istifadə olunan inşaat materiallarının, yan üzlərin bəzədilməsində tətbiq edilən

ornament-naxışların, kaşı nümunələrinin çox oxşar olduqlarına əsasən demək olar ki, bu türbə də, Naxçıvan memarlıq məktəbinə məxsusdur və bu məktəbin çiçəklənmə dövrü keçirdiyi, XII yüzilliyin ortalarında Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən Yusif Küseyir oğlu türbəsindən az sonra inşa olunmuşdur.

**Əsas hissə**

Əcəmi Naxçıvaninin Naxçıvan şəhərində inşa etdiyi abidələrdən bir neçəsinin, o cümlədən Yusif Kuseyr oğlu və Möminə xatın türbələrinin və qoşa minarəli baştağın kitabələri XIX yüzilliyin ortalarından etibarən tədqiq edilmişdir. Bu tədqiqatların nəticəsi olaraq həmin abidələrin təyinatı, sifarişçisi, inşa tarixi və memarı haqqında məlumatlar elmi dövriyyəyə daxil edilmişdir. Beləliklə, bu kitabələrin təqdim etdiyi məlumatlar əsasında görkəmli Azərbaycan memarı, hətta Azərbaycan memarlığında xüsusi məktəb yaratmış Əcəmi Əbubəkr oğlu Naxçıvaninin adı elmi ictimaiyyətə məlum olmuşdur.

Əcəmi Əbubəkr oğlu Naxçıvani yaratdığı dünya şöhrətli abidələrdən Yusif Küseyir oğlu türbəsinin üzərində imzasını "Bənna Əcəmi Əbubəkr oğlu Nəşəvinin əməlidir", Möminə xatın türbəsinin üzərində isə "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir" şəklində təqdim etmişdir. Kitabəsindən göründüyü kimi, memar Əcəmi Əbubəkr oğlu Naxçıvani ilk yaradıcılıq məhsulu olan Yusif Küseyir oğlu türbəsinin üzərində özünü "Nəşəvi" nisbəsi (doğulduğu və ya yaşadığı yerin adı) ilə təqdim etmişdir. Nəşəva, Nəşəvi orta əsrlər zamanı Naxçıvan şəhərinin adlarından biri olmuşdur. Orta əsr ərəb coğrafiyaşünası Yaqut əl-Həməvi Yusif Küseyir oğlu türbəsinin inşasından az bir müddət sonra, XIII əsrin əvvəllərində qələmə aldığı "Mücəm əl-Buldən" ("Ölkələrin əlifba sırası ilə sıralanması") əsərində Naxçıvan şəhəri haqqında iki dəfə bəhs edir. O, Naxçıvan şəhərinin adını birinci dəfə Naxcuvan, Nakcuvan, ikinci dəfə isə Nəşəva kimi qeyd etmişdir. Yaqut əl-Həməvi şəhər haqqında birinci dəfə yazır: "Naxcuvan və yaxud bəzilərinin dediyi kimi Nakcuvan Azərbaycanda şəhərdir, hansı ki, biz onun haqqında yenə danışacağıq". Müəllif ikinci dəfə isə şəhər haqqında belə yazır: "Nəşəva Azərbaycanda şəhərdir. ...Xalq arasında Naxcuvan, yaxud Nakcuvan kimi məşhurdur" (10, s. 32). Müəllifin fikrindən aydın olur ki, şəhər həmin vaxt, yəni XIII əsrin əvvəllərində Nəşəva adlansa da, xalq arasında Naxcuvan, yaxud da Nakcuvan kimi məhşur olmuşdur. XII əsrdə olduğu kimi, şəhər XIII əsrin əvvəllərində də Nəşəva adlanmış, bununla belə, həm də Naxcuvan, Nakcuvan kimi də tanınmışdır. Məhz bu səbəbdəndir ki, memar Əcəmi Əbubəkr oğlu Naxçıvani Yusif Küseyir oğlu türbəsinin inşasından bir neçə il sonra, 1186-cı ildə inşasını başa çatdırdığı Möminə xatın türbəsinin kitabəsində özünü "Naxçıvani" nisbəsi ilə təqdim etmişdir.

Daşıdığı "Nəşəvi" və "Naxçıvani" nisbələri birmənalı şəkildə təsdiq edir ki, Əcəmi Əbubəkr oğlu Naxçıvani XII yüzillikdə Naxçıvan şəhərində anadan olmuş, orada yaşamış və fəaliyyət göstərmişdir. Orta əsr mənbələrindən məlumdur ki, qədim tarixə malik olan Naxçıvan şəhəri XII əsrdə yüksək inkişaf səviyyəsində olmuş, müəllifi məlum olmayan, XIII əsrdə yazılmış "Əcaib əd-dünya" əsərinin məlumatına görə, Eldənizin dövründə özünün ən qüdrətli çağını yaşamış, orada şah iqamətgahı qurulmuş və hökumət binası (dövlət xana) inşa edilmişdi (4, s. 135). Məhz belə yüksək inkişafın nəticəsi olaraq şəhər Azərbaycanın mühüm ticarət, sənətkarlıq, elm, təhsil və mədəniyyət mərkəzlərindən biri kimi tanınmış, hətta 1136-cı ildə tarix səhnəsinə çıxan Azərbaycan Atabəyləri kimi nəhəng bir dövlətin paytaxtlarından birinə çevrilmişdi. Əcəmi Naxçıvani belə bir mühitdə Naxçıvan şəhərində doğulmuşdur və bu mühit onun görkəmli bir şəxsiyyət, xüsusilə bacarıqlı sənətkar kimi formalaşmasında həlledici rol oynamışdır. Ancaq, təəssüf ki, bu görkəmli sənətkarın anadan olduğu və vəfat etdiyi tarix elmə dəqiq məlum deyildir. Orta əsr qaynaqlarında da bu haqda elə bir məlumat yoxdur. Bu səbəbdən də, memarın doğum və ölüm tarixi haqqında ancaq, onun yaratdığı nadir memarlıq abidələri əsasında müəyyən mülahizələr yürütmək, bu tarixləri təxmini də olsa müəyyən etmək olar.

Əcəmi Naxçıvani memar kimi çoxlu əsərlər yaratsa da, həmin abidələrdən zəmanəmizədək Naxçıvan şəhərində ikisi gəlib çatmışdır. Bu abidələrdən Yusif Kuseyir oğlu türbəsinin inşası 1162-ci ildə, Möminə xatın türbəsinin inşası isə 1186-cı ildə başa çatmışdır. Əzəməti, möhtəşəmliyi, naxışlarının və kitabələrinin mükəmməlliyi ilə Möminə xatın türbəsi Yusif Kuseyir oğlu türbəsini geridə qoyur. Bu da təbii bir haldır. Çünki, inşa tarixlərindən də göründüyü kimi Yusif Kuseyir oğlu türbəsini memar nisbətən gənc və ya cavan yaşlarında inşa etmişdir. Möminə xatın türbəsinin inşası isə ondan 24 il sonra,

memarın yaşının və sənətinin kamillik çağında başa çatdırılmışdır. Fikrimizcə, Yusif Kuseyir oğlu türbəsini inşa edərkən memar təxminən 30-35 yaşlarında, Möminə xatın türbəsini inşa edərkən isə, 55-60 yaşlarında olmuşdur. Bu iki türbənin inşa tarixlərini əsas götürərək Əcəmi Naxçıvaninin doğum tarixini təxminən XII yüzilliyin 20-ci illərinə aid etmək olar. Qeyd etmək yerinə düşər ki, 1976-cı ildə böyük memarın anadan olmasının 850 illiyi təntənəli surətdə qeyd olunarkən bu cəhət nəzərə alınmışdır. Bu səbəbdən də "Naxçıvan ensiklopediyası"nda onun doğum tarixi XII əsrin 20-ci illəri kimi qeyd olunmuşdur (3, s.150). Görünür, UNESCO-nun Baş Konfransının 42-ci sessiyasında Əcəmi Naxçıvaninin 900 illik yubileyinin UNESCO çərçivəsində 2024-2025-ci illər ərzində qeyd olunacaq yubileylər siyahısına daxil edilməsi haqqında qərar qəbul edilərkən də, bu amil əsas götürülmüşdür.

Əcəmi Əbubəkr oğlu Naxçıvaninin təvəllüd tarixi kimi vəfat tarixi də dəqiq məlum deyildir. Fikrimizcə, 1186-cı ildə Möminə xatın türbəsinin inşasını başa çatdıran, bundan az sonra onun yaxınlığında Came məscidi kimi daha möhtəşəm bir abidəni inşa edən Əcəmi Naxçıvani həmin vaxt sənətinin və yaşının kamillik dövrünü yaşamışdır. İnsanın, xüsusi ilə kişilərin orta ömrünün 70-75 il olduğunu əsas kimi götürərək böyük memarın XII yüzilliyin sonlarında vəfat etdiyini ehtimal etmək olar.

Dünyasını dəyişdikdən sonrakı dövrlərdə Əcəmi Naxçıvani yaradıcılığının və onun yaratdığı məktəbin təsiri ilə çox geniş bir ərazidə möhtəşəm memarlıq abidələri yaradılmışdır. Bu memarlıq məktəbinin təsiri elə Naxçıvan bölgəsində indiyədək qalan, bəlkə də Əcəmi Naxçıvaninin özü tərəfindən inşa edilmiş Gülüstan türbəsində (XII-XIII əsr), Qarabağlar memarlıq kompleksində (XII-XIV yüzillik), Naxçıvan memarlıq məktəbinin görkəmli nümayəndəsi Əhməd Əyyub oğlu əl-Hafiz Naxçıvani tərəfinndən inşa edilmiş Bərdə türbəsində (1322-ci il), Cənubi Azərbaycanın Marağa şəhərindəki Göy günbəzdə (1196-cı il), Səlmas türbəsində (XIV əsr) və digər abidələrdə aydın şəkildə izlənir.

Ümumiyyətlə, dünya memarlıq tarixinə Əcəmi Naxçıvani kimi dahi bir sənətkar bəxş edən Naxçıvan memarlıq məktəbinin təsir coğrafiyası çox genişdir. Azərbaycan hüdudlarını aşıb keçən bu coğrafiya Yaxın və Orta Şərq ölkələrini də əhatə etmişdir. Bu ölkələrdə yetişən bir sıra görkəmli memarlar öz yaradıcılıqlarında Azərbaycan memarlığının Naxçıvan məktəbində Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən tətbiq olunan bir sıra memarlıq ünsürlərindən geniş şəkildə istifadə etmişlər. Orta Asiyada, xüsusilə Səmərqənd şəhərində inşa edilən memarlıq nümunələrində də, Əcəmi Naxçıvani sənətkarlığının izlərinə rast gəlinir. Bunun da, əsaslı səbəbləri vardır. Çünki, bilindiyi kimi, Orta Asiya fatehi Əmir Teymur tutduğu ərazilərdə fəaliyyət göstərən görkəmli sənətkarların hamısını əsir götürərək paytaxt Səmərqəndə aparırdı. Həmin sənətkarlardan Səmərqənddə möhtəşəm memarlıq abidələrinin inşasında istifadə olunurdu. 1387-ci ildə Naxçıvan ərazisi Teymur qoşunları tərəfindən tutduqdan sonra da, yerli sənətkarlar, o cümlədən memarlar Səmərqəndə köçürülmüş və onlar paytaxtın abadlaşdırılmasında iştirak etmişdilər. Ona görə də, bu abidələrdə Naxçıvan memarlıq məktəbinə məxsus xüsusiyyətlər öz əksini tapmışdır.

Uzun müddət Səfəvilər dövlətinin paytaxtı olmuş İsfahan şəhərinin memarlıq abidələrində, XVI yüzillikdə yaşamış məşhur türk memarı Sinanın İstanbulda inşa etdiyi abidələrdə də Əcəmi Naxçıvani yaradıcılığının təsiri özünü aydın şəkildə göstərir. Bunu türk tədqiqatçıları da öz əsərlərində təsdiq edirlər. Görkəmli türk-sənətşünas alimi Oqtay Aslanapa "Türk sənəti" adlı dəyərli əsərində qeyd edir ki, Anadoludakı Səlcuq dövrü memarlıq abidələrinin bəzək motivləri, Cənubi Azərbaycanın Qəzvin məscidlərindəki eyni motivlər Naxçıvan abidələri vasitəsi ilə Anadoluya gəlib çıxmışdır. Müəllif Sivasdakı memarlıq nümunəsindən bəhs edərkən qeyd edir ki, "burada daş portalın üst kənarında bir-birini kəsən altıbucaqlıda Naxçıvan günbəzlərindəki motivlərin yenidən dəyərləndirildiyi görünməkdədir (7, 270, 307). Türk alimi Dalokay Vedat da memar Sinanın yaradıcılığına həsr etdiyi "Toplumçu Sinan" adlı əsərində bu cəhətə toxunmuş, onun İstanbulda inşa etdiyi Xosrov paşa türbəsi haqqında bəhs edərkən qeyd etmişdir ki, "burada Atabəylərdən qalma günbəzlərdən bir nəfəs gəlir" (6, s. 36).

Memar Sinanın yaradıcılığında Əcəmi Naxçıvani yaradıcılığının belə qabarıq ıəkildə əks olunması isə heç də təsadüfi deyildir. Memar Sinan gənclik vaxtlarında mühəndi kimi Osmanlı ordusunda xidmət edərkən Sultan Süleyman Qanuninin 1535-ci ildə Azərbaycana yürüşü zamanı qoşunla birlikdə Naxçıvana gəlmiş, Naxçıvan şəhərində Əcəmi Naxçıvani yadigarlarını görmüşdür.

Sinan Naxçıvanda olarkən Əcəmi Naxçıvani yadigarlarından indiyədək qalan Yusif Küseyir oğlu və Möminə xatın türbələri ilə yanaşı, həmin vaxt şəhərdə salamat vəziyyətdə olan qoşa minarəli baştağı, Came məscidini və Naxçıvan memarlıq məktəbinin yetirməsi olan digər ustaların inşa etdiyi gözəl abidələri də seyr etmişdir. Bu abidələr isə onun yaddaşında böyük təsir buraxmışdı. Həmin təsir bütün yaradıcılığı boyu görkəmli memarı izləmiş, yaratdığı abidələrə özünü göstərmişdir.

Əcəmi Naxçıvani dövrünün çox böyük memarı, kamil sənətkarı olmuş, sənətinin incəliklərinə yiyələnmiş, zirvəsinə yüksəlmişdir. Onun yaradıcılığını təhlil edərkən belə bir qəti qənaətə gəlmək olur ki, o dövrünün görkəmli memarı olmaqla bərabər, həm də zəmanəsinin bir sıra elmi biliklərinə, xüsusilə həndəsə, riyaziyyat, astronoiya və s. dünyəvi və dini elmlərinə dərindən yiyələnmiş, hərtərəfli inkişaf etmiş şəxsiyyət, böyük bir filosof olmuşdur. Təsadüfü deyildir ki, başqa həmkarlarından daha çox üstünlüklərə və elmi biliklərə malik olduğu üçün Əcəmi Əbubəkr oğlu Naxçıvani müasirləri tərəfindən "Şeyxül-Mühəndisin" ("Mühəndislərin başçısı", "Mühəndislərin şeyxi") kimi dəyərləndirilmişdir. Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlığı tədqiq etmiş tədqiqatçıların da fikrincə, Əcəmi sənətində Şərqin bəlkə də heç bir filosofuna nəsib olmayan bir fikir nizamı var. Bu nizam, başqa bir ifadə ilə desək, bu sistem incəliklərinə varılsa ahəngdar bir ideologiya, bir dünyagörüş sistemindən ibarətdir. Elə bir sistem ki, səkkiz yüz il əvvəl düşünülmüş olmasına baxmayaraq, yaşadığımız bu günlərdə belə, aktual deyiləcək qədər təzə və yenidir (1, s. 70).

Qeyd etmək lazımdır ki, gökəmli memar Əcəmi Əbubəkr oğlu Naxçıvani inşa etdiyi abidələr üzərində yazdığı kitabələrdə özünü "bənna" kimi təqdim etmişdir. Görkəmli memarların apardığı tədqiqatlar göstərir ki, Azərbaycan memarlıq abidələrinin müəllifləri müsəlman intibahı dövründən başlayaraq abidələr üzərində imzalarını adın əvvəlində yazılan "bənna", "usta", "ustad", "memar" titulları ilə birlikdə qeyd etmişlər. XII əsrdə "Bənna" titulu Naxçıvan-Marağa çevrəsi abidələrində daha geniş yayılmışdır. "Bənna" sözünün o dövrdəki anlamı indikindən fərqli və çox tutumlu idi. Görkəmli Azərbaycan şairi Nizami Gəncəvi Simnarı "bənna", "o bənna kişi" kimi tanıdır və bildirir ki, "bu söz (bənna) məşhurdur və (bənna) min nəqqaşa dərs deyə bilər". Bu deyimdən göründüyü kimi Nizami dövründə bənna binanın ucaldılmasına və bəzədilməsinə bir başa başçılıq edən yaradıcı şəxsiyyət – müəllif olmuşdur. Memarlıq abidələrində rast gəlinən "ustad" titulu isə bir qədər yayqın olaraq, şəxsin konkret sənətini deyil, sənətkarlıq səviyyəsinin yüksəkliyini, ... böyük təcrübəsi ilə üstün ad qazandığını göstərirdi. "Memar" titulu daşıyan adamlar isə layihəni işləyən və tikinti gedişatında bütün inşaatçılara və inşaat işlərinə başçılıq edən sənətkar, sözün gerçək anlamında baş inşaatçı olmuşdur (2, s. 220-221).

Naxçıvan memarlıq abidələrində də eynilə bu hala rast gəlirik. Bu abidələrdə işlədilinən "bənna" və "memar" titulları konkret olaraq hər hansı bir memarlıq abidəsini tikən, ucaldan sənətkarı bildirirsə, "usta" və ya "ustad" titulu sənətkarlara verilən ümumi ad kimi işlədilir, konkret bir sənət sahəsini bildirmir. XI-XIII əsrlərdə Azərbaycan memarlığında, xüsusilə onun Naxçıvan məktəbində "bənna" titulu daha üstün və məna tutumuna görə, daha geniş anlamlı olmuşdur. Bu səbəbdən də, həmin vaxt öz sənətinin zirvəsinə yüksəlmiş Əcəmi Əbubəkr oğlu Naxçıvani "bənna" titulu daşımış, yaratdığı abidələr üzərində imzasını "bənna" kimi təqdim etmişdir.

Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən yaradılmış Azərbaycan memarlığının şah əsərləri onun irsinin dünya memarlıq sənətinin ölməz əsərləri sırasına daxil olduğunu göstərir. UNESCO tərəfindən 2024-2025-ci illərdə Əcəmi Naxçıvaninin 900 illik yubileyinin qeyd olunmasının qərara alınması da bu irsə olan hörmətin, diqqət və qayğının təzahürü kimi qiymətləndirilməlidir. Bu memarlıq irsi Əcəmi Naxçıvaninin öz dövrünün – XII əsrin misli-bərabəri olmayan memarı olduğunu inamla söyləməyə əsas verir. Qərbdə memarlıq yaradıcılığı imzasız olduğu bir vaxtda Əcəmi Azərbaycan memarlığının bir sıra şah əsərlərinin müəllifi kimi bizim gözlərimiz önündə parlaq, təkraredilməz yaradıcılıq siması olan bir sənətkar, bədii və mühəndis düşüncəsinin nəhəng siması kimi canlanır. Ona görə də görkəmli memarların sözləri ilə ifadə etsək tam əminliklə demək olar ki, XII əsrin memarlıq tarixi onunla yanaşı dayana biləcək digər bir layiqli memarı tanımır (6, s.60-61). Yaratdığı möhtəşəm memarlıq nümunələrinə əsasən mübaliğəsiz şəkildə demək olar ki, müsəlman intibahı dövründə - XII əsrdə, Gəncə şəhərində Nizami Gəncəvi, Naxçıvan şəhərində isə Əcəmi Naxçıvani kimi dahi şəxsiyyətlər yetişmiş, yaşamış və fəaliyyət göstərmişdir. Fikrimizcə, Nizami Gəncəvi ədəbiyyatda hansı zirvəyə yüksəlmişsə, Əcəmi Naxçıvani memarlıqda həmin zirvəni fəth etmişdir.

Hər hansı bir tarix-mədəniyyət abidəsi, o cümlədən türbə, məscid, xanəgah, körpü, karvansara, hamam, qala, istehkam, qəbirüstü xatirə abidəsi və s. hər bir xalqın torpağa vurduğu möhürdür. Dünyaya gələn hər bir insan ömrünü başa vurduqdan sonra dünyasını dəyişir. Ancaq, onun yaratdığı əsər, xüsusilə memarlıq abidəsi uzun müddət yaşayır, gələcək nəsillərə öz mənsubiyyəti, sifarişçisi, onu yaradan sənətkar, inşa tarixi və s. haqqında dəyərli məlumatlar çatdırır. Beləliklə, abidə öz yaradıcısının tarixdə yaşamasına, xatırlanmasına səbəb olur. Görkəmli memar Əcəmi Naxçıvani də sanki bütün bunları nəzərə alaraq özünün şah əsəri olan Möminə xatın türbəsinin üzərində belə bir beyt yazmışdır:

“Biz gedirik, ancaq, qalır ruzigar,
Biz ölürük, əsər qalır yadigar”(8, s.373).

Həqiqətən dünya memarlıq xəzinəsinə Möminə xatın türbəsi kimi möhtəşəm bir nümunə bəxş edən Əcəmi Naxçıvani öz ömrünü çoxdan başa vursa da, hətta qəbrinin yeri belə unudulsa da yaratdığı bu nadir memarlıq abidəsi 1186-cı ildən bəri, 838 ildir ki, Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalır, seyr edənləri öz gözəlliyi ilə heyran edir, müəllifinə rəhmət oxutdurur. Azərbaycan qadınının, ananın xatirəsinə ucaldılan ilk abidələrdən biri olan və Haçadağla birlikdə Naxçıvanın simvoluna çevrilən bu türbə 1632-1653-cü illərdə Hindistanda Mümtaz Mahalın şərəfinə inşa edilmiş Tac Mahal məqbərəsi ilə birlikdə dünyada qadına, anaya qoyulan ən möhtəşəm abidə kimi diqqəti cəlb edir və əzəməti ilə heyrət doğurur. Çox maraqlıdır ki, Əcəmi Naxçıvani yaratdığı abidənin gözəlliyini qiymətləndirmiş, hətta onun üzərində fars dilində kufi xətti ilə “İlahi, bəd nəzərdən uzaq elə!” sözlərini də yazmışdır.

**Nəticə**

Orta əsrlər zamanı Əcəmi Əbubəkr oğlu Naxçıvani də daxil olmaqla bütün sənətkarlar xalq kütlələri içərisindən çıxmış adamlar idi. Ona görə də, onlar hakim sinfin tələblərinə uyğun olaraq çox vaxt yaratdıqları abidələrin üzərində öz imzalarını qoya bilmirdilər. Başqa sözlə desık, abidələr anonim tukilirdi. Yaratdığı möhtəşəm memarlıq nümunələrinin, hətta Naxçıvan şəhərinin rəisi Yusif Kuseyir oğlunun türbəsi, yaxud da Atabəylər dövlətinin banisi Şimsəddin Eldənizin və dövlətin ən qüdrətli hökmdarlarından olan Atabəy Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın anası Möminə xatının qəbirüstü xatitə abidəsi üzərində öz imzasını qeyd etməsi onun yaşadığı dövrdə çox yüksək elm, hörmət və nüfuz sahibi olmasından irəli gəlmişdir.

## ƏDƏBİYYAT

1. Əliyev Q. Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq. Bakı: Şərq-Qərb,

2007, 160 s.
2. Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı: İşıq, 1991, 264 s.
3. Naxçıvan ensiklopediyası. 2 cilddə. Cild 1. Naxçıvan, 2005, 361 s.
4. Ön və Orta Asiya türklərinin tarixinə dair dörd anonim mənbə. Bakı: Nurlan, 2003, 192 s.
5. Salamzadə Ə. Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri. Bakı: İşıq, 1976, 84 s.
6. Salamzadə Ə., Məmmədzadə K. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. Bakı: Elm, 1985. 268 s.
7. Aslanapa Oqtay.Türk sanatı. İstanbul: Remzi kitabevi, 1997.
8. Алескерзаде А.А. Надписи архитектурных памятников Азербайджана. Эпоха Низами / Архитектура Азербайджана. Эпоха Низами. Москва-Баку, 1947, с. 369-390.
9. Ибрагимов Б. Нововыявленный мавзолей XII в.в. Хараба – Гилане. Доклады АН Азербайджанской ССР. Том XL, №7,1984, с.87-91.
10. Йакут ал-Хамави. Муджам ал-Булдан. Перевод с арабского З. М. Буниятова и П. К.Жузе. Баку: Элм, 1983, 34 с.

## SUMMARY

## ABOUT THE LİFE, CREATİVİTY OF THE PROMINENT AZERBAIJAN ARCHITECT AJAMI ABUBAKR OGULU NAKHCHIVANI

The article deals with life, creativity, the dates of birth and death of the prominent Azerbaijani architect Ajami Abubakr oglu Nakhchivani. It is noted that there is no information till today about the life, creativity, birth and death dates of Ajami Nakhchivani in medieval sources. Therefore, analyzes are made based on the construction dates of the tombs of Yusif Guseyir oglu and Momina Khatun, which were the products of the architect's creativity, and his dates of birth and death are determined approximately. It is concluded that Ajami Abubakr oglu Nakhchivani was born in the 20s of the 12th century and passed away at the end of the same century.

**Key words:** *Azerbaijan, Nakhchivan, Ajami Nakhchivani, architect, Momune khatun, tomb, monument.*

## РЕЗЮМЕ

## О ЖИЗНИ И ТВОРЧЕСТВО ВЫДАЮЩЕГОСЯ АЗЕРБАЙДЖАНСКОГО АРХИТЕКТОРА АДЖАМИ АБУБАКР ОГЛЫ НАХЧЫВАНИ

В статье говорится о жизни, творчество, датах рождения и смерти выдающегося Азербайджанского архитектора Аджеми Абубакр оглы Нахчывани. Отмечается, что в средневековых источниках нет сведений о жизни, творчество, датах рождения и смерти Аджами Нахчывани. Поэтому анализ проводится на основе дат строительства могил Юсифа Гусейир оглы и Момины хатын, являющихся плодами творчества архитектора, и определяются его даты рождения и смерти, хотя и приблизительные. Делается вывод, что Аджами Абубакр оглы Нахчывани родился в 20-х годах XII века и умер в конце того же века.

**Ключевые слова:** *Азербайджан, Нахчыван, Аджами Нахчывани, архитектор, Момина хатын, могила, памятник.*